# Zəfər haqqı

## Güləş üzrə dünya və Avropa çempionu İslam ABBASOV: "Seçkilərin qalibi Azərbaycana zəfər gətirən lider olacaq"

"Azərbaycanımızın əldə etdiyi uğurlar öncədən düşünülən, sabaha hesablanan, gələcəyə doğru düzgün yol alan strategiyanın nəticəsidir. Bu strategiyanın, onun hesabına hər sahədə qazandığımız qələbələrin, o cümlədən Vətən müharibəsində qazandığımız möhtəşəm zəfərin müəllifi dövlətimizin başçısı İlham Əliyevdir".

Bu, dünya və Avropa çempionu, Tokio Yay Olimpiya Oyunlarının iştirakçısı, İslam Oyunlarının qalibi güləşçi İslam Abbasovun sözləridir. İdmançı deyir ki, 44 günlük müharibədə döyüşə atılan əsgərdən tutmuş arxa cəbhədə çalışan müxtəlif peşə sahiblərinədək hər kəs qələbəmizə ürəkdən inanırdı: "Çünki Ali Baş Komandan İlham Əliyev uzun illər bu qələbənin möhkəm zəminini hazırlamışdı. Buna görə də biz qalib gəldik. Bütün bunlara görə gələn il fevralın 7-də keçiriləcək seçkidə seçimimiz məhz İlham Əliyev olacaq".

İslam Abbasov əslən Qubadlı rayonundan olsa da, Sumqayıtda böyüyüb boya-başa çatıb. Hələ gənc yaşlarından idmana olan həvəsi onu beynəlxalq turnirlərin tatamisi üzərinə qaldırıb. Qələbələrini zəhməti, gücü və səbri ilə əldə edib.

- 44 günlük Vətən müharibəsindən öncə qatıldığım çoxsaylı turnirlərdə uğurlar qazansam da, həmişə daxilən bir rahatsızlığım vardı. Qarabağın işğal altında olması biz idmançıları ürəkdən sevinməyə qoymurdu. Bir sözlə, qarşımızda bir qala var idi ki, onu almalıydıq. Bu gün artıq o bədbin hissdən qurtulmuşuq. Məhz İlham Əliyevin sayəsində! - deyə İslam söhbətinə davam edir.

O, Avropanın və dünyanın bir çox şəhərlərində ölkəmizin idman şərəfini qoruyub: "Hər yerdə xarici həmkarlarımız deyirlər ki, elə bir Prezidentiniz olduğu üçün siz xoşbəxtsiniz. Həqiqətən belədir. Çünki dövlətimizin başçısının idmana və gəncliyə xüsusi qayğısı var. Ona görə də xarici həmkarlarımız Azərbaycan idmançılarına qibtə ilə baxırlar. Ölkəmizə yarışlarda iştirak etməyə, yaxud sadəcə qonaq gələndə bizim müasir olimpiya komplekslərini görüb həsəd aparırlar. Biz özümüz də gəncləri pis vərdişlərdən qoruyan, sağlam həyat tərzinə səsləyən belə idman komplekslərimizin olmasından çox məmnunuq. Onların hamısı İlham Əliyevin təşəbbüsü ilə tikilib".



İslam Abbasov dövlət başçısı ilə görüşlərini də böyük məmnuniyyət hissi ilə xatırlayır:

- O vaxt ali təhsil alırdım. İdman yarışlarında, respublika və Avropa turnirlərində qalib gələn tələbələrlə İdman Akademiyasında görüş vardı. Bizi təbrik edən Prezident hamı ilə səmimi görüşdü. Bildirdi ki, sizin qələbəniz bütün Azərbaycana aiddir. Hər dəfə yüksəltdiyiniz bayraqla milyonlarla azərbaycanlının başını uca edirsiniz.

Bundan sonra İslam Avropa və dünya çempionu adını qazanıb. Qubadlının işğaldan azad edilməsinin ildönümündə keçirilən tədbirdə isə o, dövlət başçısı ilə yenidən görüşüb: "Görüş zamanı haqqımdakı məlumatları Prezident İlham Əliyev bir-bir özü dedi. Bildirdi ki, gənclərimizin iştirak etdiyi hər yarış diqqət mərkəzindədir. Əsgərlərimizin döyüş meydanında qazandığı qələbəni sizlər turnirlərdə davam etdirirsiniz. Mən isə bundan sonrakı uğurlarımı Prezidentə həsr edəcəyimi bildirdim. Çünki İlham Əliyev bizi hər sahədə yeni zəfərlərə doğru aparır. Odur ki, qarşıdakı növbədənkənar seçkinin qalibi olmaq Prezidentimizin haqqıdır. Bu, təkcə mənim yox, idmançı dostlarımın hamısının fikridir".

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 21 dekabr, № 279.- S.7.